Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqları"

# Bu günün ekranı və efiri

## Hazırlanan hər yeni veriliş Azərbaycan tarixinin, mədəniyyətinin, ölkəmizin siyasi həyatının və yaşam tərzinin dünyaya açılan nəfəsliyidir

**Bu günün tamaşaçısı və dinləyicisi özünü televiziya və radiodan nə qədər uzaq tutmağa çalışsa da, televiziya və radio ona daha çox yaxınlaşır, hər bir ailənin həyatının, məişətinin bir parçasına çevrilir. Uşaqlı-böyüklü, ahıllı-cavanlı hər kəs bu sehrli görüntülər və səslər xəzinəsindən ürəyinə yatanı, qəlbini oxşayanı seçir, necə deyərlər, əlində yağı daşan qadınlar da, ən vacib işini təxirə salmağa hazır olan kişilər də, bir cizgi filmi, bir maraqlı oyun üçün yuxusundan, yeməyindən belə imtina edən uşaqlar da, bu kütləvi informasiya mənbəyini yaşam tərzlərinin vacib, vazkeçilməz "atributu" sayırlar.**

Biz nə qədər elm və texnika əsrindən maksimum bəhrələnsək, o, yenə də vaxtaşırı, özünün ən gözlənilməz kəşfləri, yenilikləri ilə bizi təəccübləndirməkdə davam edir. Bəs könlümüzü sehrləyən, gözümüzün rəng çalarını zənginləşdirən, zövqümüzün cilalanma meyarına çevrilən bu sehrli aləmi yaradan kimlərdir? Təbii ki, bizim gənc və istedadlı əsrdaşlarımız, müasirlərimiz, peşəkar insanlar.

Bizim, orta nəslin nümayəndələri, uşaqlığı sovetin qadağalı, senzuralı, ölçülü-biçili verilişlərinə baxmaqla formalaşanların gəncliyi öz müstəqilliyini yenidən bərpa edən bir ölkənin -Azərbaycanın başına gətirilən fəlakətlərin acısını dadmaqla, 20 Yanvar gecəsinin qanlı qırğınından keçməklə, Xocalı faciəsinin ağrılarına şahidliklə etməklə yadda qalıb. Bizim yaşıdlarımızın sinəsinə şəhid qanı çilənib, biz, ötən əsrin son onilliyində mənfur qonşularımızın sərsəm iddialarının qurbanı olan torpaqlarımızı geri qaytarmaq əzmi ilə yaşayanlarıq. Bir zamanlar televiziyada və radioda söylənən hər bir fikrə və sözə inanan, onu, necə deyərlər, "Quran ayəsi" kimi doğru və redaktəsiz qəbul edən nəslin övladları olduğumuzdan, bir müddət əvvəl fəaliyyətə başlayan və sayı ildən-ilə artan özəl kanalların bolluğuna da sevinmişdik, bir vaxtlar ciddi-cəhdlə tamaşaçılardan gizlədilən bəzi mövzuların gündəmə gətirilməsini də alqışlamışdıq və deyəsən o illərdə klassik ölçü-biçisini, dilimizin saflığını, musiqimizin, bədii sözümüzün doğallığını qoruyub saxlamaq üçün hər çətinliyə dözən və artıq özünün müdriklik çağını yaşayan Azərbaycan Televiziyasına marağınız sanki bir qədər ikinci plana keçmiş kimi idi. Lakin ona olan



sevgimiz, ehtiramımız və inamımız heç vaxt bizi tərk etməmişdi, azalmamışdı, tükənməmişdi, əksinə, son vaxtlar daha güclü bir istəklə artıb, çoxalmışdı. Son bir ildə Azərbaycan televiziyasının simasının yaxşılığa doğru ildırım sürəti ilə dəyişdiyini görməmək və bunu dilə gətirib etiraf etməmək, ən azından insafsızlıq olardı.

Mən əvvəllər də televiziyada müxtəlif verilişlərə dəvət olunmuşam, orada işləyən dostlarım, tanışlarım var. İllər boyu orada hansı vəziyyətin hökm sürdüyündən də az-çox xəbərdar idim. İndi isə nəzərə çarpan dəyişikələr isə sözün əsl mənasında tamaşaçının gözünü və könlünü sevindirir. Burada aparılan islahatlar, yeni, daha maraqlı, daha aktual və operativ verilişlər mövzu rəngarəngliyi, təqdimat əlvanlığı ilə seçilir. Studiyaların, hər bir verilişin xarakterinə uyğun müasir dizaynlı tərtibatı, müxtəlif yaş təbəqələrindən olan tamaşaçıların da bilavasitə əyani iştirakı ilə təqdim olunan verilişlərin bolluğu da, gənc və işgüzar əməkdaşların fəallığı, onların ölkəmizə gələn qonaqlarla elə onların dilində apardıqları aktual müsahibələr, söhbətlər, siyasi şərhlər tamaşaçılarda qürur hissi doğurur. Bu cavanların dünyada və ölkəmizdə baş verən müxtəlif olaylara müasir gəncliyin düşüncə bucağından baxmaq qabiliyyəti də təbii ki, hər kəsi sevindirir.

Ekran və efir hər zaman incəsənətimizin, mədəniyyətimizin təbliğat tribunası olub. Rəhbərlik etdiyim Azərbaycan Dövlət Akademik Musiqili Teatrı da daxil olmaqla, respublikamızda fəaliyyət göstərən bütün teatr və konsert müəssisələrinin yaradıcılıq uğurlarını həmişə işıqlandıran, ən yaxşı səhnə əsərlərini çəkib televiziyanın zəngin arxivində nümayiş etdirmək və sonra onları qayğı ilə qoruyub saxlayaraq əmanət kimi gələcək nəsillərə çatdıran da televiziyadır, radiodur. Həm AzTV, həm də son illər uğurla fəaliyyət göstərən "Mədəniyyət" kanalı bu müqəddəs missiyanın öhdəsindən bacarıqla gəlir. Hər iki kanalda teatrımızın hazırladığı yeni tamaşaların məşq prosesindən, premyeralarından verilişlər, efirdə yaradıcı heyətlə tamaşaçıların görüşləri təşkil olunur, bir sıra xarici ölkələrdə keçirilən beynəlxalq müsabiqələrdə fərqlənən ifaçılar barədə məlumatlar verilir ki, bu da, bütövlükdə mədəniyyətimizin təbliği üçün çox önəmlidir.

"Televiziya həyatın ekranda əks olunmuş kiçik modelidir" deyirlər. Bəlkə də bu sözdə gizli bir kod, çoxlarının sonacan çözməyə çətinlik çəkdiyi bir ismarıc var. Biz ən geniş otağımızın yuxarı başında yer ayırdığımız o sehrli qutuda gördüyümüz insanları zaman keçdikdə yaxınımız, dostumuz, doğmamız kimi həm evimizin, həm də könlümüzün qapısından içəri keçiririk. Həmişə də arzulayırıq ki, bu şəxslər yüksək ədəb-ərkanı, mükəmməl nitq qabiliyyəti, zövqlü geyim tərzi, müzakirəyə çıxarılan mövzuya hakimliyi, onu tamaşaçıya çatdırmaq ustalığı ilə seçilsin. Təəssüf ki, bəzən bu "qızıl qaydalar"a əməl etməyən telekanallar da tapılır ki, bu da xoş qarşılanmır.




Bu gün könül rahatlığı ilə demək istəyirəm ki, köhnə stereotipləri qısa zaman kəsiyində aradan qaldırmaq, köhnə verilişləri bir anda sanki bir sehrkar çubuğunun toxunması ilə tamamilə dəyişib müasir tələblərə cavab verən yeni, daha müasir forma və məzmunlusu ilə əvəzləmək, dünya televiziyalarının ənənələrindən yaradıcılıqla bəhrələnərək, daha modern bir telekanal yaratmağa nail olmaq asan iş deyil. Lakin yeni sədr - hər birimizin istedadlı jurnalist və siyasi şərhçi, bacarıqlı televiziya təşkilatçısı kimi tanıdığımız Rövşən Məmmədov bu çətin və məsuliyyəti vəzifənin öhdəsindən layiqincə gəldiyini sübut etdi və on minlərlə tamaşaçının televiziyaya marağını yeniləməyə nail oldu.

Azərbaycan Televiziyasının, "Mədəniyyət" və "İdman" kanallarının yeni verilişlərin təkcə forma və təqdimat üslubu dəyişməyib, həm də məzmunu və dərin fəlsəfi yükü, vətəndaşlıq mövqeyi də yenilənib, modernləşib ki, bu da bütövlükdə tamaşaçı zövqünün formalaşmasına xidmət edir, onları, xüsusilə də gəncləri maarifləndirir, sabaha gedən yolda daha əzmlə və inamla irəliləməsinə yadım edir. Hazırlanan hər yeni veriliş həm də daha çox Azərbaycan tarixinin, mədəniyyətinin, ölkəmizin siyasi həyatının və yaşam tərzinin, hər bir vətəndaşımızın tükənməyən arzularının bu gün efir və ekran vasitəsi ilə dünyaya açılan nəfəsliyidir. Çox qısa zaman kəsiyində həm televiziyada, həm də radioda nəzərə çarpan islahatlar həyata keçirməyi bacaran və bütün istedadlı insanların, yaradıcılıq kollektivlərinin dostuna-doğmasına çevrilən Rövşən Məmmədova da, onun istedadlı və işgüzar komandasına da 6 noyabrda qeyd ediləcək radio və televiziya işçilərinin peşə bayramı ərəfəsində xoş əhval-ruhiyyə, yeni uğurlar arzulayıram.

**Əliqismət Lalayev,**
**Azərbaycan Dövlət Akademik Musiqili Teatrın direktoru,**
**Əməkdar İncəsənət xadimi,**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.**

## Sahibkarlar aqrar sahədə dəstək mexanizmləri barədə maarifləndiriləcək




**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı və Azərbaycan Dövlət İqtisad Universitetinin dəstəyi ilə keçiriləcək növbəti onlayn maarifləndirmə tədbiri aqrar sahədə tətbiq olunacaq yeni subsidiya qaydalarına və kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən KOB-lara dövlət dəstəyi mexanizmlərinə həsr ediləcək.**

KOBİA-dan bildirilib ki, noyabrın 6-da saat 11:00-da təşkil olunacaq onlayn tədbirdə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektləri müvafiq mövzularda məlumatlandırılacaq, Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən onları maraqlandıran suallar cavablandırılacaq. Onlayn tədbirə ölkənin istənilən yerindən internetə çıxışı olan kompüter, planşet və mobil telefondan istifadə etməklə qoşulmaq mümkündür.

Agentliyin ölkənin 16 şəhər və rayonunda fəaliyyət göstərən KOB dostları tərəfindən onlayn tədbirə qoşulmaq istəyən sahibkarlara hər cür dəstək göstəriləcək.

Qeyd edək ki, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün bir sıra dövlət dəstəyi mexanizmləri - kənd təsərrüfatı texnikasının və damazlıq heyvanların lizinq üsulu ilə verilməsi, aqrar məhsulların istehsalçılarına mineral gübrə, biohumus və pestisidlərin güzəştlə satılması, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili, güzəştli kreditlərin verilməsi və sair tətbiq olunur. 2020-ci il yanvarın 1-dən fermerlərə subsidiyalar yeni qaydalarla veriləcək.